**Tuncər Cücənoğlu**

# Q A Ç I Ş

*(Radio-pyes)*

*Azərbaycan dilinə tərcümə edən:*
**ELVİN NURİ**

İSTANBUL – 1984

**İ ş t i r a k   e d i r l ə r :**

TAMƏR – 35 yaşında.

NURTƏN – 25 yaşında, həyat yoldaşı.

GÜLƏR – 13 yaşında, Taməri̇n qardaşının qızı.

TURQUT – 40 yaşında, müəllim.

HƏKİM MARAL – 30 yaşında.

XƏSTƏ BAXICISI – 50 yaşında. (Kişi)

*Bu pyes Ankara radiosu tərəfindən 24.03.1984-cü il tarixində TRT 3- də nümayiş etdirilmişdir.*

*Effekt – Masaya qoyulan boşqab, stəkan, çəngəl-bıçaq səsləri.*

NURTƏN. Hə, Tamər, day qəzetə baxmaqdan əl çək... Gülər, qızım, sən də mətbəxdən qazanı gətir... Qızım, səninləyəm...

*Effekt – Ayaq səsləri.*

NURTƏN. Eyyy, yatmısan?.. Mən də elə bilirəm ki, qəzet oxuyursan.

*Effekt – Bükülən qəzet səsi.*

TAMƏR. *(Bezmiş halda)* Hər gün 2 saat get, 2 saat gəl... O da normal şərtlərdə... Yəni bizimki də həyatdır? Qəzet oxumağa hal qalır ki?!
NURTƏN. Yenə səni nəsə narahat edir. Tamər, de görək, nədir?
TAMƏR. Daha nə olsun?! Gecənin bu vaxtı yeməyə otururuq. Yeyəndən sonra da birbaşa yatağa...

*Effekt – Ayaq səsi.*

NURTƏN. Yeməyin altını azaltdın? Səninləyəm, qızım...
GÜLƏR. Başa düşmədim, gəlinbacı.
NURTƏN. Deyirəm, yeməyin altını azaltmısan?
GÜLƏR. *(Olduqca qorxaraq)* Azaltdım, gəlinbacı.

*Effekt – Masaya qoyulan qazanın səsi.*

NURTƏN. Dur, qızım... O qazanı bura qoy... İndi birimizin qolu dəyər, xalçamızın üstünə tökülər.

*Effekt – Qazanın qabağa çəkilməsi.*

NURTƏN. Gülər... Çörək yadımızdan çıxıb... Səninləyəm, Gülər... Çörək yadımızdan çıxıb... Bıçağı da gətir...

*Effekt – Ayaq səsi. Boşqablara tökülən yemək.*

TAMƏR. Mənə çox qoyma.
NURTƏN. Çörəksiz yeyərsən...
TAMƏR. Gecənin bu vaxtı yeyirəm, ondan sonra da səhərə qədər qıvrınıram...
NURTƏN. Tez yediyinə görədir... Amma çəynəyə-çəynəyə yesən...

*Effekt – Ayaq səsi.*

GÜLƏR. Çörək bıçağını tapa bilmədim, gəlinbacı... Bu balaca bıçağı gətirdim...

*Effekt – Masaya qoyulan bıçağın və çörəyin səsi. Yemək yeyilir.*

TAMƏR. Pərdə açıqdır. Gülər, deyirəm, pərdə açıqdır.

*Effekt – Ayaq səsi.*

NURTƏN. *(Yavaşca)* Bu qızın üstünə qışqırmasan, olmaz da...
TAMƏR. Elə bil, teatr səhnəsidir. Bir bax, yığılıblar evin qabağına. Bizə tamaşa edirlər...

*Effekt – Çəkilən pərdənin səsi.*

TAMƏR. Azı 20 dəfə dedim ki, pərdəni bağlayın... Pərdələri işıqları yandırmamış örtün...

NURTƏN. Sən yenə bu gün tərs tərəfindən oyanmısan...
TAMƏR. Bax, yenə açıq qaldı... Gülər, Gülər, bu axşam yenə məndən dəyənək görəcəksən.
GÜLƏR. *(Ağlamsınaraq)* Əmi... Yuxarıya boyum çatmır ki...
NURTƏN. Sən dayan, əzizim...

*Effekt – Ayaq səsi. Çəkilən pərdənin səsi.*

NURTƏN. Budur, örtdüm.

*Effekt – Yemək yeyilir.*

*(Uzaqdan fəryan edirmiş kimi eşidilər bir körpə səsi.)*

TAMƏR. Nə vaxt yatdırmısan?
GÜLƏR. Bir az əvvəl, əmi...
NURTƏN. Sən gəlməmişdən qabaq.
TAMƏR. Get yatdır, elə gəl...
NURTƏN. Bəlkə, qazı var...
TAMƏR. İçərinin işığını yandırma, təmiz oyanar...
NURTƏN. Qızım, qapını da ört, içəriyə işıq düşməsin.

*Effekt – örtülən qapı.*

NURTƏN. Bu uşağın üstünə qışqırırsan, vallah, ürəyim əzilir... Əl boyda uşaqdır... Hələ 13 yaşı var... Alıb gətirmişik... Uşağımıza baxır, hələ özü uşaqdır... Bir də

necə gəldi qışqırırsan... Bir gün çıxıb gedəcək evinə, uşağımız ortada qalacaq...
TAMƏR. Hara gedəcək? Qardaşım onun ayaqlarını sındırar.
NURTƏN. Necə də olsa, çarəsizdir, eləysə, təyziq göstərməyə davam...
TAMƏR. Bax, Nurtən... Gülər mənim nəyimdir? De də...
NURTƏN. Böyük qardaşının qızı...
TAMƏR. Oldu...
NURTƏN. Bəs eləysə, bu elədiklərin nədir?
TAMƏR. Bəzi şeyləri sənə deyə bilmirəm.
NURTƏN. Bax, uşağın səsi öz-özündən kəsildi.
TAMƏR. Qardaşımın yanına gedib az yalvarmışam? Amandır, qardaş, ocağına düşmüşük... İstanbul kimi yerdə qırxı çıxmış yerdə uşağımızı hara, kimə əmanət edək? Güləri bizə ver, heç olmasa, uşaq bir az böyüyənə qədər, bizim yanımızda qalsın. Onsuz da uşaq bağçası da, demək olar ki, açılmaq üzrədir. Sənin evində qalınca bizim evimizdə qalsın... Yedirib, içirib, geyindirib, gəzdirərik... Az dedim?
NURTƏN. Yəni gətirənə qədər öldün.
TAMƏR. Gülər bizə əmanətdir, Nurtən... Hər gün əlim ürəyimdədir... Bura İstanbuldur... Üstəlik, Gülər yetkinlik çağındadır...
NURTƏN. Nə deməyə çalışırsan?..
TAMƏR. Dünən bir ətək geyinib... Demək olar ki, yox kimi bir şey. Qucağında da bizim uşaq. Binanın qabağında oturub. Biri aldatsa, başına bir iş gəlsə, mən bunun cavabını qardaşıma necə verərəm, Nurtən?
NURTƏN. Sənə demirəm ki, sərbəst, özbaşına burax...
TAMƏR. Basdığı yerdən xəbəri var?
NURTƏN. Çox üstünə gedirsən, Tamər.
TAMƏR. Mən nə deyirəm, sən nə başa düşürsən...
NURTƏN. Bir az şirin dillə de...
TAMƏR. Deyirlər ki, əmanətin canı burnunda olar... Gecə yuxularımda belə, Güləri görürəm... Ötən gecə yenə bir yuxu gördüm... *(Masaya "tak-tak" vurur)* Şeytan qulağına qurğuşun...
NURTƏN. Gündüz niyyətinə de.
TAMƏR. Gündüz niyyətinə... Bu qarşıdakı mənzildə bir cavan oğlan var, ha... Güləri götürüb qaçıb. Qardaşım bir maşına oturub gəlib... Partlayış kimi girdi yanıma... "Sahib çıxmayacaqdınsa, niyə qızı buralara gətirdin? Mən bu qızı daha neyləyə bilərəm?"

*Effekt – Musiqi.*

NURTƏN. Barı ödənişsiz icazə alım.
TAMƏR. Onda necə dolanaq?
NURTƏN. Belə narahat olmağın daha pisdir... Onsuz da bir ilin içində bizim çevrənin bağçası açılacaq. Baş ofisdən təsdiqlənib...
TAMƏR. O vaxta qədər çox sıxıntı çəkərik... *(Pərişan)* Bir yerdə yığılmış pulumuz da yoxdur.

NURTƏN. Eləysə, qardaşının təklifinə uyğun olaraq, uşağı məmləkətə göndərək... Bağça açılana qədər...
TAMƏR. Dözə bilərsən?
NURTƏN. *(Pərişan)* Məcbur olduğumuz halda, neyləyək, dözərik...
TAMƏR. Elə şey olmaz...
NURTƏN. Onda Gülərlə bir az yaxşı rəftar elə... Qorxma, heç nə olmaz. Bax, o gələn 5 ay oldu... Gülərdəki dəyişikliyi heç hiss eləmirsən də...
TAMƏR. Nə dəyişiklik?
NURTƏN. Əvvəl gələndə, belə idi? Şad, çevik idi... Get-gedə özünə qapandı... Qorxaq, ürkək oldu... Bir tıqqıltı eşitsə, dovşan kimi qulaqlarını şəkləyir... Dediklərimizi ən azı iki, üç dəfə təkrarlayır, başa düşmür... Ruh kimidir...
TAMƏR. İnan ki, heç fərqində deyiləm...
NURTƏN. Onsuz da nəyin fərqindəsən ki?!..
TAMƏR. Məni yenə əsəbləşdirmə... Gündə 4 saatım yollarda keçir...
NURTƏN. Mən bu evin xanımıyam, kişisiyəm, heç başa düşmürəm. Səhər idarəyə, gecə evə... Bazara-dükana belə, mən gedirəm...
TAMƏR. İşi yenə şəxsi mübahisəyə keçirməyək... İş yerim uzaqdadırsa, günah məndədir? Hər halda, mənə yaxın ev tutub, sənin eyni şərtlər altında bura gəlib-getməyini istəyə bilmərəm... Bir müddət də səbr etmək məcburiyyətindəyik. Lazım olsa, işimi dəyişdirəcəyəm... Səhər altının yarısı çıxıram evdən... İnsafın olsun. Neçə dəfə yollarda yatıb qalıb, yolumu uzatmışam... Üç avtobus dəyişirəm e, üç...
NURTƏN. *(Yumşalır)* Əsəbləşdim deyə, dedim, canım...
TAMƏR. Onda demə...
NURTƏN. Tamər, Gülər bizim üçün tapılmaz nemətdir... Ona yaxşı rəftar etməliyik... Bax, uşağı yatdırdı... Di sən get, bura gətir... Şorbası soyumasın... Həm də könlünü almış olarsan.
TAMƏR. *(Pərişan)* Soyuyub ki...
NURTƏN. Mən isidərəm...

*Effekt – Ayaq səsi... Açılan qapı.*

TAMƏR. *(Yavaşca)* Güləəər...
GÜLƏR. Buyur, əmi...
TAMƏR. Yatdı?
GÜLƏR. Yatdı...
TAMƏR. Gəl, çarpayısına qoyaq...
GÜLƏR. Əmi, işığı yandır da...
TAMƏR. Salonun işığı kifayətdir, qızım.
GÜLƏR. Axı, görə bilmirəm...
TAMƏR. İşığı yandırsaq, oyanar... Ver görüm, uşağı mən götürüm... Ah, atasının birdənəsi... Çarpayısına qoyaq... Bax, belə... Gəl, Gülər, yeməyin soyumasın... Dur da...
GÜLƏR. *(Həyəcanlı bir səs)* Uşağı necə götürdün, əmi? Necə yatdırdın? Necə

gördün?
TAMƏR. Nə oldu, qızım?
GÜLƏR. İşığı yandır da, əmi...
TAMƏR. Salonun işığı düşür də...
GÜLƏR. Əmi, içəriyə düşür?
TAMƏR. Düşür...
GÜLƏR. Sən... Sən görürsən, əmi?
TAMƏR. Görürəm...
GÜLƏR. Mən... Görmürəm, əmi... Mən görümürəm... Görümürəm... Görmürəm...

*Effekt – Musiqi səsi. Açarın səsi.*

GÜLƏR. Əmi... Əmi...
TAMƏR. Gülər, əzizim... İşığı yandırdım... İndi də görmürsən?.. İçəri qaranlıqdır?
GÜLƏR. Qətiyyən görmürəm, əmi...
TAMƏR. Gözlə məni...

*Effekt – Ayaq səsi. Qapının örtülməsi.*

TAMƏR. Nurtən... Nurtən...
NURTƏN. Nə oldu?.. Uşağa nəsə olub?..
TAMƏR. Gülər görmür, Nurtən...
NURTƏN. Sən nə danışırsan?
TAMƏR. Gülər görmür...
NURTƏN. Nə baş verir?.. Nəyi görmür?..
TAMƏR. And içirəm ki, görmür...
NURTƏN. Bunu hardan çıxartdın?
TAMƏR. İşığı yandırdım, yenə görmür... Gülər kor olub...

*Effekt – Qaçan ayaq səsləri. Açılan qapı.*

NURTƏN. Güləəər... Əzizim...
GÜLƏR. Görmürəm, gəlinbacı... Görmürəm...
NURTƏN. İndi neyləyəcəyik?
TAMƏR. Aman Allah!..
NURTƏN. Belə şey olmaz...
TAMƏR. Gəl, qızım...
GÜLƏR. *(Ağlamağa başlayır)* Görmürəm... Görmürəm...
TAMƏR. Heç nə olmayacaq, qızım...
NURTƏN. Aman Allah!..
TAMƏR. Qızım, sən otur... Nurtən, gəl mənə kömək elə... Dayan, qızım, qolumdan tut.
GÜLƏR. Qorxuram...

TAMƏR. Noolar, qızım...
GÜLƏR. Qorxuram, əmi...
NURTƏN. Allahım... Allahım...

*Effekt – Uzaqlaşan ayaq səsləri.*

NURTƏN. Neyləyəcəyik?
TAMƏR. Bilmirəm.
NURTƏN. Bir şey eləməliyik.
TAMƏR. Bu, necə bir işdir?!
NURTƏN. Belə dayanmaqla olmaz, Tamər...
TAMƏR. Mən qardaşıma nə deyəcəyəm?.. Aman Allah!..
NURTƏN. İndi qardaşını fikirləşmə...
TAMƏR. *(Çarəsiz)* Necə fikirləşməyim, Nurtən?.. Hər şeyi fikirləşmişdim... Amma belə bir vəziyyəti... Aman Allah!..
NURTƏN. Dayan görək, Tamər, bəlkə, bizi aldadır?
TAMƏR. Sən nə danışırsan?..
NURTƏN. Mən nə bilim... Bəlkə də... Sınayaq...
TAMƏR. Necə?
NURTƏN. Sakitcə içəri gir, işığı söndür... Mən də bu kibriti özümlə götürürəm.
TAMƏR. Neyləyəcəksən?
NURTƏN. Qaranlıqda birdən kibriti yandıracağam... Əgər fikirləşdiyim kimidirsə, mütləq işığa baxacaq.

*Effekt – Ayaq səsləri.*

GÜLƏR. Qorxuram... Qorxuram...
TAMƏR. Qorxma, qızım... Biz yanındayıq...

*Effekt – Kibritin yandırılmasından yaranan səs.*

GÜLƏR. Nə oldu, əmi? Qorxuram...
TAMƏR. Görmürsən?
GÜLƏR. Görmürəm, əmi... Qorxuram...
NURTƏN. Aman Allah!..
GÜLƏR. Qorxuram... Qorxuram...
TAMƏR. *(Səmimiyyətlə)* Ağlama, noolar...
NURTƏN. Neyləyək?
TAMƏR. Xəstəxanaya aparacağıq...
GÜLƏR. Qorxuram...
NURTƏN. Mən uşağı hazırlayım...
TAMƏR. Amma işimiz uzana bilər...
NURTƏN. Onda mən getməyim... Aman Allah, bu, nədir belə?

TAMƏR. Tək başıma getmək istəmirəm...
NURTƏN. Uşaq nə olacaq?
TAMƏR. Aşağı mərtəbədəkilərə qoyarıq...
NURTƏN. Turqut bəygilə?.. Özü də maşını da var...
TAMƏR. Ayıb olmasın...
NURTƏN. Ayıbı fikirləşəsi haldayıq? Maşınla da bizi xəstəxanaya aparar... Gecənin bu vaxtı taksini hardan tapacağıq?
TAMƏR. Mən deyə bilmərəm.
NURTƏN. Deməyini ehtiyac yoxdur... Ağlı başında, müəllim adamdır...
TAMƏR. Bəlkə, yatırlar?
NURTƏN. Səhərə qədər kitab oxuyur... Bir də ki, bu vacib haldır, Tamər.
GÜLƏR. Qorxuram...
NURTƏN. Sən düş...

*Effekt – Musiqi.*

TURQUT. Allah, Allah!.. Allah, Allah!..
TAMƏR. Sizi bir də narahat etməyək.
TURQUT. O nə sözdür, Tamər bəy, o nə sözdür?!
TAMƏR. Bir taksi çağıraram, məsələ həll olar.
TURQUT. Tamər bəy, qonşu qonşuya belə vaxtda lazımdır... Taksi çağıracağam da sözdür?!.. Bizim maşın qapının qabağında dayanıb. Siz Güləri gətirin...

*Effekt – Musiqi.*

TURQUT. Arxaya əyləşdirək... Başını əy, qızım... Oldu... Bir az da əy...
GÜLƏR. Qorxuram...
TAMƏR. Amma ağlama... Heç nəyin qalmayacaq...
NURTƏN. Görəcəksən, qızım...
TAMƏR. Yoxsa, məhv olarıq...
TURQUT. Xahiş edirəm, xahiş edirəm... Nurtən xanım, siz Gülərin yanında oturun... Tamər bəy də mənim yanımda əyləşər...

*Effekt – Örtülən qapılar... İşləyən motor... Dayanır... Yenidən sınayır... Yenidən... Yenidən...*

TURQUT. Lənətə gələsən!..
TAMƏR. İşləmir?
NURTƏN. Görürsən ki, işləmir...
GÜLƏR. Qorxuram...
TURQUT. Bir maşına ki ildə-ayda bir dəfə minərsən, onda da bax, belə olar.

*Effekt – İşləyən motor.*

TURQUT. Ay Allah!.. Axır ki, işlədi...

*Effekt – Getdikcə sürəti artan bir maşın səsi. Tək-tük də olsa, başqa maşın səsləri.*

TURQUT. Necə oldu?
TAMƏR. Birdən-birə...
TURQUT. Durduğu yerdə...
TAMƏR. Durduğu yerdə... Durduğu yerdə dedi ki, görmürəm...
GÜLƏR. Qorxuram...
TURQUT. Həkimə aparırıq, qızım... Qorxu üçün bir səbəb yoxdur.
NURTƏN. Çox sürətlə getmirik?
TURQUT. Yollar boşdur... Yol polisləri də xəstəmiz olduğu üçün, elə hesab edirəm ki, nəzərə alarlar...

*Effekt – Sürəti artan maşın.*

TURQUT. Kişi uzaq faraları gör necə yandırıb...

*Effekt – Maşının sürüşməsindən yaranan səslər.*

TURQUT. Görə-görə üstümüzə gəldi...
GÜLƏR. Qorxuram...
TURQUT. Qorxma, qızım... Yığışdırdıq...

*Effekt – Musiqi.*

TURQUT. Budur, gəldik...

*Effekt – Maşın yavaşıyır. Sürəti azalır.*

TURQUT. Qabaqdakı lövhəni oxuya bilirsiniz? Gülər, sən eynəkdən istifadə etmirsən, elədir?
GÜLƏR. İstifadə etmirəm...
TURQUT. *(Qəflətən)* Bulanıq görürsən?
GÜLƏR. Heç görmürəm... Qorxuram...
NURTƏN. Sağa dönəcəyik...

*Effekt – Hərəkət edən maşın.*

NURTƏN. Bu da qarşısı...
TURQUT. Düz qapının qabağına yaxınlaşaq...
TAMƏR. Arxada bir maşın var...
TURQUT. Görürəm! Görürəm!

*Effekt – Yaxınlaşan və dayanan maşın.*

TURQUT. Qapıda işıq yanır, amma, elə bil, içəridə heç kim yoxdur.
TAMƏR. Növbətçi həkim olmalıdır... Bura böyük xəstəxanadır...

*Effekt – Açılan qapılar. Ayaq səsləri.*

TAMƏR. Növbətçi həkim var?
XƏSTƏ BAXICISI. Var... Nə olub?
NURTƏN. Görməməyə başladı...
XƏSTƏ BAXICISI. Adı nədir?
TAMƏR. Gülər...
XƏSTƏ BAXICISI. Soyadı?
TAMƏR. Qıroğlu...
TURQUT. Bu qeydiyyat işi sonra olsa, olmaz?
XƏSTƏ BAXICISI. Olmaz... Girəni-çıxanı yazmaq məcburiyyətindəyik... Doğum tarixi?
TAMƏR. Şey...
GÜLƏR. 1970...
NURTƏN. Ağlama, qızım...
XƏSTƏ BAXICISI. Ata adı?
TAMƏR. Ömər...
XƏSTƏ BAXICISI. Ana adı?
TAMƏR. Saliha...
TURQUT. Yaxşı ki, qızımız ölümcül qəza keçirməyib...
XƏSTƏ BAXICISI. Həkim içəridədir...
TAMƏR. Qoluma gir, Gülər...

*Effekt – Musiqi.*

TURQUT. Axşamınız xeyir, həkim xanım!
MARAL. Axşamınız xeyir... Gətirin... Nə olub?..
TAMƏR. Görmür, həkim xanım...
MARAL. Nə olub?.. Qəza?..
NURTƏN. Xeyr...
MARAL. Necə oldu?
NURTƏN. Heç nə olmayıb...
MARAL. Bura gətirin... Durduğu yerdə?
TAMƏR. Bəli...
MARAL. Nə vaxt?
TAMƏR. Heç bir saat deyil... İçəridə uşağımızı yatdırırdı... Birdən görməməyə başladı...
MARAL. Bura oturdun... Qorxma, qızım... Ağlama... Qorxma... Mən həkiməm...

Siz də başımın üstündən çəkilin... Qızım, danış görüm necə oldu?
GÜLƏR. İçəridəki otaqda uşağa baxırdım... Yatdırırdım... Əmim gəldi... Sonra... Sonra... Qorxuram...
MARAL. Ağlama, əzizim... Qızınızdır?
TAMƏR. Qardaşımın qızıdır...
MARAL. Anasısınız?
NURTƏN. Gəlinbacısıyam.
MARAL. Bəs siz?
TURQUT. Onlardan aşağı mərtəbədə yaşayıram... Maşınla gətirmişəm...
MARAL. İndi yaxşı-yaxşı bax... Sənin adın nədir?
GÜLƏR. Gülər...
MARAL. İndi yaxşı-yaxşı bax... Əlimi görürsən?.. Diqqətlə bax...
GÜLƏR. Xeyr.
MARAL. İndi?
GÜLƏR. Xeyr.
MARAL. Heç?
GÜLƏR. Heç.
MARAL. Bəs indi?
GÜLƏR. Heç.
MARAL. Görmürsən, hə?
GÜLƏR. Qorxuram...
MARAL. İndi də o birisi gözünə baxaq... İndi?
GÜLƏR. Görmürəm...
MARAL. Bəs indi?
GÜLƏR. Görmürəm...
MARAL. Heç?
GÜLƏR. Heç.
MARAL. Bir kibrit yandıraq...

*Effekt – Kibrit yandırılması.*

MARAL. İndi?
GÜLƏR. Xeyr.
MARAL. Siz əl hərəkətləri etməyin, cənab... Mən onsuz da kifayət qədər edirəm.
NURTƏN. Çəkil, Tamər.
MARAL. Görürsən?
GÜLƏR. Görmürəm...
MARAL. Heç?
GÜLƏR. Heç... *(Ağlayır)*

*Sükut.*

MARAL. Ağlama, əzizim... Sən heç tərpənmə...

TAMƏR. Həkim, görə biləcək?
MARAL. Bilmirəm... İndidən heç nə deyə bilmərəm. Amma bu, bir həqiqətdir ki, qızımızda heç bir reaksiya yoxdur. Əzizim, sənin adın nə idi?
GÜLƏR. Gülər...
MARAL. *(Zarafatla)* Gördünüz?!.. Bayaq soruşduğum halda... Sən nə göyçək qızsan, Gülər...
TAMƏR. Görəcək?
MARAL. İstəyirəm ki, görsün... Gülər, indi soruşduqlarıma cavab ver. Heç yıxılmısan?
GÜLƏR. Nə vaxt?
MARAL. Təxminən, bir ay içində.
GÜLƏR. Xeyr.
MARAL. Başın harasa dəyib?
GÜLƏR. Xeyr.
MARAL. Kimsə başına vurub?
TAMƏR. Kim vura bilər ki?!
MARAL. Xahiş edirəm, Gülər cavab versin...
GÜLƏR. Yox, heç kim vurmayıb...
MARAL. Bir dayan, Gülər. Əlimizlə başını bir yoxlayaq...

*Sükut*

MARAL. Yox... Şiş filan yoxdur... Həddən artıq qaynar su ilə yuyunmusan? Qaynar suyla?
TAMƏR. Həkim xanım, bir həftədir ki, sular kəsilib.
MARAL. Xahiş edirəm... Əzizim, sən de... Başına isti su, qaynar su tökmüsən?
GÜLƏR. Yox... Heç kim də tökməyib...
TAMƏR. Həkim xanım, görə biləcək?
MARAL. Yıxılmadığına, nəyləsə başına vurulmadığına və başına qaynar su tökülmədiyinə görə, nevroloji vəziyyət ola bilər...
NURTƏN. Yəni?
MARAL. Beynini tomoqrafiya edəcəyik.
TAMƏR. Nevrologiya bölməsi hardadır?
MARAL. İndi yox, sabah... Amma indi qızımızın gözünə bir şey tökəcəyəm... Bu şkafdan damcını götürüm.

*Effekt – Açılan şkaf qapısı... Şaqqıltılar.*

MARAL. İndi bu balaca şüşədən Gülərin gözünə damızdıracağam... Amma bir az yandıracaq... Aç gözünü... Aç, aç, aç... Bax, belə...
GÜLƏR. Çox ağrıtdı... Yaman ağrıdır...
MARAL. İndi də o birisi gözünə... Dayan görək... Tərpənmə... Oldu... Başını qaldır görüm...

GÜLƏR. Yaman ağrıyır...
MARAL. İndi gözlərini aç, yum... Aç, yum... Ay sağ ooool!... İndi qızımızı aparın və dəhlizdəki skamyada oturun... Yarım saat gözləyin... Sonra təzədən baxacağam...
TAMƏR. Gəl, qızım... Yavaş... Gəl...

*Effekt – Yavaş-yavaş atılan addımlar.*

GÜLƏR. Yaman ağrıdır...
NURTƏN. Ötüb gedəcək...
TURQUT. Otur, qızım... Söykən arxaya...
NURTƏN. Bir azdan görəcəksən...
TAMƏR. Hardadır o günlər?..
GÜLƏR. Susadım...
TAMƏR. Mən indi gətirərəm...

*Effekt – Ayaq səsi.*

TURQUT. Day ağlama, qızım... Nurtən xanım, siqaret çəkirsiniz?
NURTƏN. Təşəkkür edirəm... Sizə də əziyyət verdik... Daha gözləməyin... Bir maşına minib gələrik...
TURQUT. Bu, bayaqdandır ağlımdadır... Arvadım mənə həmişə gecələr bayırda qalmamağı deyir, çünki evdə qorxduğunu deyir. Nə vaxt dostlarla axşam bir yeməyə filan getmək istəsək, eyni bəhanə ilə qarşımda dayanır. Amma bu gecə mənə demədi ki, qorxuram... Bu isə məndə arvadımın gecələr qorxmağı mövzusunda ciddi həyəcanlar yaranmasına səbəb oldu...
NURTƏN. Sabah işə gedəcəksiniz...
TURQUT. Mənim məktəbim yaxındır... Bir də ki, günortadan sonra gedəcəyəm... Gözün ağrıyır?
GÜLƏR. Keçdi, Turqut əmi...

*Effekt – Ayaq səsi.*

TAMƏR. İç, qızım... Dayan, mən içirim... Bir də heç vaxt sənə qışqırmayacağam... Bircə sən gör... Dərhal da ailənin yanına göndərəcəyəm.
GÜLƏR. Nə vaxt?
TAMƏR. Görən kimi göndərəcəyəm...
TURQUT. İstanbulu sevə bilmədi?..
NURTƏN. Sevməyinə sevdi, amma qardaşları üçün darıxır... Anasını... Atasını... Onsuz da bayramda da qısa müddətlik yanlarına göndərəsi idik. Turqut bəy, Tamər məni ayaqyoluna aparsa, sizə ayıb olmaz, elə deyil?
TURQUT. Buyurun...

*Effekt – Ayaq səsləri.*

TURQUT. Evdəkilər üçün çox darıxırsan?
GÜLƏR. Bəli, çox...
TURQUT. Ən çox kiminçün darıxırsan?
GÜLƏR. Hamısını...
TURQUT. Amma ən çox?
GÜLƏR. Qardaş-bacılarımı...
TURQUT. Neçə bacı-qardaşın var?
GÜLƏR. Üç uşağıq...
TURQUT. Qız, oğlan?
GÜLƏR. Bir qız, bir oğlan...
TURQUT. Yaşları?
GÜLƏR. Murad məndən bir yaş böyükdür... Sibel də məndən iki yaş kiçikdir... *(Həsrətlə)* Top oynayırıq... Gizlən-qaç oynayırıq... Bizim böyük bir həyətimiz var... Toyuqlarımız var... Hətta itimiz də var... İtimizlə də top oynayırıq... Bəzən, bir taxta parçasını atırıq...

*Effekt – Hürən it. Gülən uşaqlar.*

GÜLƏR. İtimiz qaçıb onu gətirir... Tapıb gətirir... Nə qədər uzaqlığa atsaq, yenə də tapıb gətirir... Murad əlindəkini hamımızdan daha çox uzaq məsafəyə atır... Təbii ki, o oğlandır. Daha çox uzaqlığa ata bilir.
TURQUT. İtinizin adı yoxdur?
GÜLƏR. Qarabaş... *(Sükut)* Görəcəyəm?..
TURQUT. Ağlama... İstanbulda dostların yoxdur?
GÜLƏR. Yox... Heç kim yoxdur...
TURQUT. Heç?
GÜLƏR. Heç...
TURQUT. İstanbuldan xoşun gəlmədi?
GÜLƏR. Gəldi.
TURQUT. Bax, gör nə gözəl şəhərdir?.. Gözəl deyil?
GÜLƏR. Gözəldir... Yoxsa, mən görməyəcəyəm?.. Niyə belə oldu?.. Niyə görmürəm, əmi?..
TURQUT. Bax, həkim nə dedi?!.. Yalnız yarım saatdan sonra təsir göstərəcək demədi?
GÜLƏR. Dedi...
TURQUT. Eləysə, gözləyək... Vaxt bitməyib ki... Elə deyil?.. Ağlama da...
GÜLƏR. Yaxşı.
TURQUT. De görək, İstanbulda haralara getmisən?
GÜLƏR. Xeyli yerə aparıblar.
TURQUT. Yoxsa, səni çox gəzdirmirlər?
GÜLƏR. Gəzdirirlər...
TURQUT. Nə vaxt?
GÜLƏR. Həftə sonlarında... Bəzən...

TURQUT. Keçən həftə hara getmisiniz?
GÜLƏR. Heç yerə getməmişik... Amma ondan əvvəki həftə...
TURQUT. Ağlama...
GÜLƏR. Qorxuram, əmi...
TURQUT. Yanında mən varam... Keçən həftədən əvvəlki həftə hara getmişdiniz?
GÜLƏR. Meşəyə apardılar...
TURQUT. Orada oynadın, qaçdın...
GÜLƏR. Yalnız uşaq yatanda...
TURQUT. Həmişə uşaqla məşğul olursan?
GÜLƏR. Bəli...
TURQUT. Gecə də?
GÜLƏR. Bəli.
TURQUT. Axı, gecə Nurtən xanım gəlir...
GÜLƏR. Yemək hazırlayır... Mən yemək hazırlaya bilmirəm...
TURQUT. Yaxşı ki, bilmirsən...
GÜLƏR. Amma öyrənəcəyəm... Kibriti yandırmaqdan qorxmasam, yemək hazırlayaram...
TURQUT. Kibriti niyə yandıra bilmirsən?
GÜLƏR. Bilmirəm...
TURQUT. Qorxursan...
GÜLƏR. Anam bir dəfə saçını yandırmışdı...
TURQUT. Necə?
GÜLƏR. Təzəcə kibriti yandırmışdı ki, saçları od tutdu...
TURQUT. Tamər əmin dünən sənə qapının qabağında qışqırdı...
GÜLƏR. Atama söz vermişdi...
TURQUT. Nə söz?
GÜLƏR. İstanbulda qızları qaçırırmışlar...
TURQUT. Bu, hardan çıxdı?
GÜLƏR. Atam, anam, bir də Tamər əmim danışanda eşitmişəm.
TURQUT. Yox, qızım... Heç kimi qaçırmırlar...
GÜLƏR. Amma danışırdılar... Pis yollara salmaq üçün qaçırırlarmış... Atam dedi ki, qətiyyən təkbaşına çıxma.
TURQUT. Aydındır... Heç gəmiyə minmisən?
GÜLƏR. Minmişəm...
TURQUT. Gözəldir, elə deyil? Gəmidən xoşun gəldi?
GÜLƏR. Xoşum gəldi...
TURQUT. Sizin məmləkətdə dəniz var?
GÜLƏR. Yox... Yozqatda dəniz nə gəzir?!
TURQUT. İstanbulun ən çox nəyindən xoşun gəlir?
GÜLƏR. Luna parkından... Qatara da minmişik...
TURQUT. Eləysə...
GÜLƏR. Qorxuram, əmi...

*Effekt – Ayaq səsləri.*

TAMƏR. Bağışlayın, Turqut bəy...
TURQUT. Rica edirəm...
NURTƏN. Sizə çox zəhmət veririk...
TURQUT. Əstafurullah!.. Tamər bəy, bir az ikimiz gəzəkmi?
TAMƏR. Olar.

*Effekt – Ayaq səsləri.*

TURQUT. Çox dərdli bir uşaqdır.
TAMƏR. Başa düşmədim...
TURQUT. Həmişə uşağa baxır...
TAMƏR. Hə...
TURQUT. Heç yanından ayrılmır...
TAMƏR. Elədir... Bilirsiniz ki, ikimiz də işləyirik...
TURQUT. Deyəsən, gecə həyat yoldaşınız gələndən sonra da uşağa Gülər baxır...
TAMƏR. Elədir, Nurtən mətbəxə keçir...
TURQUT. Düz edir... Yemək hazırlayır, qab-qaşığı yuyur... Ancaq yuxuya gedəndə uşaqdan canı qurtarır.
TAMƏR. Elədir... Çarəmiz yoxdur.
TURQUT. Sizi qınamıram, xahiş edirəm, məni səhv başa düşməyin... Amma belə başa düşürəm ki, ailəsinin yanında olduqca sərbəst olur.
TAMƏR. Burda da sərbəsdir... Bütün gün evdə təkdir... İstədiyini yeyir...
TURQUT. Çox da gəzdirə bilmirsiniz...
TAMƏR. Bilirsiniz ki, mənim işim nə qədər uzaqdadır. Təkcə 4 saatım yollarda keçir... Yorğun-arğın hara apara bilərəm ki?
TURQUT. Sizi qınamıram. Amma həqiqəti tapmağa çalışıram... Məni başa düşürsünüz, elə deyil?
TAMƏR. Deyəsən, başa düşürəm...
TURQUT. Və Gülər darıxır... Qızcığazın bir yığın məsuliyyəti də var... Mən psixoloq deyiləm, amma məsələyə bir də bu tərəfdən baxsaq, hesab edirəm ki, faydalı olar.
TAMƏR. Başa düşmədim.
TURQUT. Mənə icazə versəniz, həkimlə danışmaq istəyirəm...

*Effekt – Musiqi.*

TURQUT. Həkim, sizinlə bir az danışa bilərəm?
MARAL. Əlbəttə, buyurun... Xahiş edirəm, əyləşin...
TURQUT. İcazənizlə, əvvəlcə, tanış olaq... Turqut Can...
MARAL. Maral Öz... Xoş oldum...
TURQUT. Maral xanım, mən müəlliməm... Siqaret istəyirsiniz?

MARAL. Təşəkkür edirəm.

*Effekt – Yanan kibrit.*

TURQUT. Biz onların aşağı mərtəbəsində yaşayırıq... Ər-arvad işləyirlər... Uşaqları anadan olanda, böyük böhran (gərginlik) keçirdilər... Hətta hələ doğulmamış böhranları başladı. Uşağa kim baxacaq?.. Tamər bəy axırda məmləkətdən böyük qardaşının qızını gətirdi... Yəni Gülər Tamər bəyin qardaşının qızıdır. Gülərin danışdıqlarına görə, orda çox xoşbəxt imiş. Bacı-qardaşı, anası, atası... İtləri ilə hamısı birlikdə xoşbəxt yaşayırlarmış... Bunları bir az əvvəl Gülər danışdı... Və danışanda, o görməyən gözləri gülürdü... Birdən öyrəşmədiyi bir mühitdə tək-tənha və özünü məsuliyyətlərin arasında görür. Üstəlik, Güləri İstanbul haqqında olduqca qorxunc şeylərlə qorxudublar.
MARAL. Necə?
TURQUT. Qız yetkinlik çağındadır... Hesab edirəm ki, anası-atası çölə çıxmağının qarşısını almaq üçün Gülərə İstanbulda qızların qaçırılması ilə bağlı axmaqcasına şeylər deyiblər. Üzr istəyirəm, sizə ağıl öyrətmək mənim həddim deyil, amma işə bir az da bu tərəfdən baxsaq... Bu, bir təyziq deyil? Bir qaçış? Korluğu seçmiş olmasın?
MARAL. Mənim də ağlıma gəldi... Amma bu dərəcədə rola girməyi mümkünsüzdür... Çünki heç reaksiya vermir... Bilirsiniz və gördünüz, qəfildən əlimi gözünə tərəf uzatmağım içində olmaqla bunu bir çox yolla sınadım... Qətiyyən reaksiya vermir... Heç kim bu dərəcədə uğurlu rol oynaya bilməz... Qalmışdı ki, bir uşaq...
TURQUT. Mən demədim ki, rol oynayır.
MARAL. Eləysə, nədir?
TURQUT. Baxın, həkim xanım... Məncə, müəllim olduğumu demişdim... Başınızı ağrıtmıram ki?
MARAL. Əstafurullah!
TURQUT. 5 il bundan qabaq Təhsil Nazirliyində bir imtahan var idi. İmtahandan sonra xaricdə işləyəcək müəllimlər müəyyən olunacaqdı... Və imtahandan keçənlər bizimkilərin işlərinin çox olduğu ölkələrə göndəriləcəkdi. Bir çoxları kimi mən də imtahana girdim. Açığı, şansım üzümə güldü və keçdim. Almaniyaya göndərilənlərin içində Təhsin adlı bir müəllim yoldaşım da var idi... Xaricə getməyi o qədər istəyirdi ki, keçə bilməsəydi, həqiqətən, pis olardım... Çox pozitiv, həyatsevər bir adam idi və hələ 35 yaşı var idi...
MARAL. Sonra?
TURQUT. Sonra Almaniyaya bir yerdə getdik... Bir-iki həftə günlərini maraqla, coşğu ilə keçirdi. Sonra birdən durğunlaşdı. Get-gedə heç nəyə qulaq asmayan, başa düşməyən vəziyyətə düşdü... Bir gecə, heç yadımdan çıxmaz, gördüm ki, yorğanını başına çəkib, səssiz-səssiz ağlayır...
MARAL. Daüssıla... Bizim dilimizdə, Vətən həsrəti...
TURQUT. Səhər oyananda o qara saçları ağappağ olmuşdu. Təhsini tez-tələsik

Türkiyəyə yolladıq. Şübhəsiz ki, saçları qaralmadı, amma sağlamlığına qovuşdu... Qaldı ki, Gülər... Hələlik onun geri qayıtmaq şansı yoxdur... Birdən ağlıma gəldi...
MARAL. Başa düşürəm. Gülərinki də psixosomatik bir reaksiya ola bilər. Amma bir fikir söyləmək üçün hələ tezdir...
TURQUT. Qardaş-bacıları üçün çox darıxıb. Hə, bir şeyi deməsəm, olmaz... Ona çox təyziq göstərirlər...
MARAL. Necə bir təyziq – döymək, filan?
TURQUT. Görməmişəm, amma inanmıram ki, döyələr... Amma...
MARAL. Amma?
TURQUT. Ötən gün bir hadisəyə şahid oldum... Gülər uşağı götürüb, mənzilin qabağında gəzişirdi. Tamər bəy gəldi və hamının qabağında:

*Effekt – Musiqi.*

TAMƏR. Sən burda neynirsən?
GÜLƏR. Uşağı gəzdirirəm, əmi.
TAMƏR. Sən özünün gəzdirirsən. Sənə demədik ki, bizsiz aşağı düşmək olmaz?! Qalx yuxarı...

*Effekt – Musiqi.*

TURQUT. Gülər utanıb-çəkinərək içəri girdi... Başqalarının da olmağı, deyəsən, onu bir az da utandırmışdı... Onsuz da Güləri bir də bayırda görmədim.
MARAL. Bunları danışmağınız yaxşı oldu.
TURQUT. Əvvəllər buna oxşar bir-iki hal yenə olmuşdu... Mənim gördüyümə şübhə ola bilməz.
MARAL. Bəs görmədikləriniz? Yaxşı, bəs, niyə Gülərə bu qədər təyziq göstərirlər?
TURQUT. Qardaşı Güləri şərtlə verib... Başına bir iş gəlsə, məsuliyyəti Tamərin daşıdığını deyib... Bir az danışsanız, bunu başa düşərsiniz...
MARAL. Ağla batandır... Şübhəsiz, bunlar səbəb ola bilər... Olmaya da bilər... Lakin hal-hazırda real bir həqiqət var: Gülər görmür... Bir az da gözləyək, bu ehtimalları ondan sonra dəyərləndirərik.

*Effekt – Musiqi.*

TURQUT. Necəsən, Gülər? Gözlərin daha ağrımır, hə?..
GÜLƏR. Ağrımır, Turqut əmi...
TURQUT. *(Əminliklə)* Görəcəksən, qızım... Mütləq görəcəksən... Özü də tez bir zamanda... Həkimlə də danışdım... O da deyir ki, görəcəksən...
GÜLƏR. Deyir?
TURQUT. Əlbəttə. Deyir, görəcək. Bir azdan yanına girəcəyik... Sənə təzədən baxacaq... Və sən gördüyün günün səhəri bacı-qardaşlarının yanına gedəcəksən.

Avtobus biletini səninlə mən, yəni ikimiz alacağıq, oldu, əzizim?! Maşınımıza minib, gedib Topqapıdan sənin biletini alacağıq... Bacı-qardaşına qovuşacaqsan... Yaxşı?
GÜLƏR. Yaxşı, Turqut əmi.
TURQUT. Göndərəcəyik, qızım...
NURTƏN. Bircə sən gör...
TURQUT. Amma bunu yadından çıxartma, görəndə göndərəcəyik...
TAMƏR. Öz əlimlə apararam...
TURQUT. Amma biletini almaq üçün Gülərlə birlikdə gedəcəyəm.
NURTƏN. Həm bilet almağa gedərəm, həm də Güləri aparmağa... Bircə görsün.
TURQUT. Görəcəksən, elə deyil, qızım?
GÜLƏR. *(Xeyli müddət susduqdan sonra)* Görəcəyəm...

*Effekt – Musiqi.*

TURQUT. *(Zəif səslə)* Bax, burda, Gülərin düz qabağında floresan var...
TAMƏR. *(Zəif səslə)* Gördüm.
TURQUT. Hərçənd, indi qaranlıqdır, amma düyməsi burdadır... Bax, bax...
TAMƏR. Gördüm.
TURQUT. Mən sənə işarə verəndə yandırıb, təzədən söndürəcəksən.
TAMƏR. Niyə?
TURQUT. Gülər görəcək, Tamər bəy... Amma bu, hamımızın hərəkətlərindən asılıdır... Xahiş edirəm... İşarəmi gözləyin...
TAMƏR. İnşallah!..

*Effekt – Ayaq səsləri.*

TURQUT. Gülər...
GÜLƏR. Buyur, Turqut əmi...
TURQUT. Görə bilirsən?
GÜLƏR. Xeyr!
TURQUT. Görəcəksən, elə deyil?
GÜLƏR. Hə...
TURQUT. Görəcəksən ki, səni bacı-qardaşının yanına göndərək.
GÜLƏR. Hə...
TURQUT. Bacı-qardaşına, anana qovuşmağın görməyindən asılıdır... Başa düşürsən?
GÜLƏR. Başa düşürəm.
TURQUT. Di, ya Allah!..

*Effekt – Düymənin səsi.*

TURQUT. Nə görürsən?

GÜLƏR. Heç nə...
TURQUT. İndi bir az da diqqətlə bax... Hə...

*Effekt – Düymənin səsi.*

TURQUT. Nə oldu?
GÜLƏR. Heç nə.
TURQUT. Bəs indi?.. Diqqətli ol... Yaxşı-yaxşı bax... Daha qorxmursan, elə deyil?
GÜLƏR. Yox...
TURQUT. Görəcəksən...
TAMƏR. *(Zəif səslə)* Çifayda..
TURQUT. İşığı yandır.

*Effekt – Düymənin səsi.*

GÜLƏR. İşıqlandı... İşıqlandı...
NURTƏN. Aman Allah!..
TAMƏR. *(Kövrəlir)* Görəcək... Görəcək...
TURQUT. Qızım, məni görürsən?
GÜLƏR. Yox... Amma işıqlandı... İşıq gördüm... İşıq...
NURTƏN. İlahi, sənə şükürlər olsun!..
TURQUT. Gülməlisən, Nurtən xanım!..
NURTƏN. Bu, ağlamaq deyil ki...
TAMƏR. Neyləyərdik?
TURQUT. Dayanın görək, hələ bizi görmür... Elə deyil, qızım?
GÜLƏR. Görmürəm, amma işıq görürəm... Belə, zəif, dumanlı... İşıq...
TURQUT. İndi...

*Effekt – Düymə.*

GÜLƏR. İşıqlandı...
TURQUT. Amma ağlama, qızım... İndi?..

*Effekt – Düymə.*

GÜLƏR. Qaraldı.

*Effekt – Düymə.*

GÜLƏR. İşıqlandı.

*Effekt – Düymə.*

GÜLƏR. Qaraldı.

*Effekt – Düymə.*

GÜLƏR. İşıqlandı.
TURQUT. Bu, yaxşı başlanğıcdır... Daha bəsdir, Tamər bəy...
NURTƏN. Görəcək, elə deyil?
TURQUT. Mütləq görəcək... Gəlin, həkimin yanına aparaq...

*Effekt – Ayaq səsləri. Musiqi.*

MARAL. Nə görürsən?
GÜLƏR. Ağlıq... Ağ bir şey... İki tərəfə... Gedib-gəlir...
MARAL. Gülər, o ağlıq dediyin mənim köynəyimin qoludur... Yaxşı, qızım... Mən indi Gülərə bir dənə də dərman yazacağam... Üç saatdan bir qəbul edəcək...
NURTƏN. Həkim xanım, görəcək, elə deyil?
MARAL. Ümid edirəm...
TAMƏR. İnşallah...
NURTƏN. Sizə minnətdarıq, həkim xanım...
MARAL. Vəzifəmi yerinə yetirdim... Hələ ki, tam nəticə almamışıq... Amma hesab edirəm ki, görə biləcək. Sabah bir də Güləri görmək istəyirəm.
TAMƏR. Nə vaxt gətirək?
MARAL. Günortaya yaxın gətirin... Həm də beyin tamoqrafiyası edərik.
TURQUT. Problem olmazsa, mən də gələ bilərəmmi?
MARAL. Xəstəmizin əsas həkimi sizsiniz...
TURQUT. Bəzi halların şahidiyəm, vəssalam.
MARAL. Görsə, şübhəsiz, ən böyük pay sizə düşəcək.

*Effekt – Musiqi. Maşın hərəkət edir.*

TURQUT. İndi necəsən, Gülər?
GÜLƏR. Ağlıqlardan... (Aralıqlardan) Keçirik... Keçirik... Keçirik...
NURTƏN. *(Sevinclə)* Küçə fənərlərinə ağlıq deyir...
GÜLƏR. Keçdik... Keçdik... Keçdik...
TAMƏR. Gülər, məni görürsən?
GÜLƏR. Keçdik...
TURQUT. Tamər bəy, sizi görməyə hələ hazır deyil...

*Effekt – Musiqi. Qapının açılması.*

TURQUT. Gözəl qızımızı divana yatdıraq... Belə... Başının altına bir yastıq da qoyaq... İndi necəsən, qızım?
GÜLƏR. Hər tərəf işıqdır... Amma sizi görə bilmirəm... Şəkillər... Ətrafımda

fırlanır... Başımın üstündə nəsə var...
TURQUT. Əzizim, kabus kimi bir şeydir?
GÜLƏR. Hə...
TURQUT. *(Gülərək)* Tamər bəy, sizi qızımız kabus kimi görür.
TAMƏR. Amandır, görsün, nə görürsə, görsün...
NURTƏN. Gülər heç nə yeməyib... Acmısan?
GÜLƏR. Hə...
TURQUT. Tamər bəy, bir az belə gəlin...

*Effekt – Ayaq səsi. Dayanır.*

TURQUT. Qətiyyən, qışqırmaq, əsəbləşmək olmaz. Gülərin görməyin, şübhəsiz ki, sizin hərəkətlərinizlə bərkiyəcək... Yenə görmək istəməsə, bilmirəm ki, nə olacaq.
TAMƏR. Görəcək, hə?
TURQUT. Ümid edirəm, görəcək... Amma bu şərtlə ki, dediyim kimi rəftar edəsiniz. Amma məni bir məsələ yaman düşündürür... Gülərlə bu evdə bu günə kimi yaxşı rəftar olunmayıb... Qorxuram, öyrəşmədiyi xoş rəftar üçün görməməyi davam etdirməz.
TAMƏR. Nə edək?
TURQUT. Hər şeyi tarazlamaq lazımdır... Hə, mən artıq evə gedirəm... Qızım, səni də yanaqlarından öpüm... Sabah səhər oyananda, mütləq görəcəksən... Oldumu?
GÜLƏR. Oldu, Turqut əmi.
TURQUT. Sabah səhər hara gedəcəyik?
GÜLƏR. Həkimin yanına...
TURQUT. Yox, əvvəlcə, gedib biletimizi alacağıq... Sonra həkimə...
NURTƏN. Turqut bəy, hər şeyə görə, təşəkkür edirik.
TURQUT. Sabah gəlib qızımı yoluxacağam... Dərmanını da içirik ki, tez görsün... *(Yavaşca)* Bilirsiniz, həkim Gülərə vitamin yazıb... Ey, Tamər bəy, uşağınızı bizdən götürməyəcəksiniz?
NURTƏN. Ay Allah, görürsünüz, həyəcandan yadımızdan çıxıb.

*Effekt – Musiqi. Səhərin açıldığını bildirən səslər...*

NURTƏN. Siqareti çox çəkdin...
TAMƏR. Neyləyim?
NURTƏN. Mən bilən, iki qutunu keçib...
TAMƏR. Bir də sən doğanda, belə olmuşdum... Doğuş uzandıqca, siqaretdən yapışmışdım... İnşallah, doğuşdakı kimi xeyirli olar...
NURTƏN. İnşallah... Bəs, bir də...
TAMƏR. Düşünmək belə, istəmirəm... Qorxulu şey olar... Bundan sonra həyatımız qarabasmaya çevrilər.
NURTƏN. Əgər görməsə... Mən də özümü günahlandıracağam. Balaca bir qız mənim işlərimi görür və...

TAMƏR. Oyadaq?..
NURTƏN. Nə bilim...
TAMƏR. Oyat...
NURTƏN. Mənim cəsarətim çatmır... Sən kişisən...
TAMƏR. Elə bil, mən cəsarət eləyə bilirəm... Qalxaq...

*Effekt – Ayaq səsləri.*

TAMƏR. Mələk kimi yatır... Məsum və xəbərsiz... Həyəcansız...
NURTƏN. Di oyat...

*Effekt – Qapının zəngi çalınır.*

TAMƏR. Dayan, mən baxaram. Ooo...
TURQUT. Sabahınız xeyir!
TAMƏR. Sabahınız xeyir!.. Keçin içəri...
TURQUT. Oyanmışdınız?
TAMƏR. Yatmamışıq ki...
NURTƏN. Sabahınız xeyir!
TURQUT. Sabahınız xeyir!
NURTƏN. Xələtlə qarşınıza çıxmaq məcburiyyətində qaldım... Məni bağışlayın...
TURQUT. Əstafurullah!..
NURTƏN. Buyurun...
TURQUT. Gülər...
TAMƏR. Yatır...
NURTƏN. Açığı, oyatmağa qorxuruq...
TURQUT. Əliniz, üzünüz şişib... Deyəsən, yatmamısınız...
TAMƏR. Qeyri-mümkün idi...
TURQUT. Gəlin, daha oyadaq... Hə, Tamər bəy... Desəm ki, həyəcanlanmıram, yalan olar... Amma daha axıra çatmışıq... Qorxası nə var ki? Görürsə, görür, görmürsə, görmür, neyləyək?

*Effekt – Ayaq səsləri.*

TURQUT. Nə gözəl yatır...
TAMƏR. Siz oyadın...
TURQUT. Doğma əmisi olduğunuz üçün, bu, sizin üzərinizə düşür.
NURTƏN. Hə, Turqut bəy...
TURQUT. Güləəər... Güləəər... Qızıııım... Səhər açılıb... Oyan...

*Effekt – Musiqi.*

TAMƏR. Gözlərini açır...

NURTƏN. Açdı...
TURQUT. Gülər...

*Effekt – Musiqi.*

GÜLƏR. Turqut əmi...
TURQUT. Gülər...
GÜLƏR. Turqut əmi...
TAMƏR. Əzizim...
GÜLƏR. Gəlinbacı...
NURTƏN. Qızım...
GÜLƏR. Görürəm... Görürəm... Görürəm...
TURQUT. Bacardıq...
GÜLƏR. Görürəm... Görürəm...
TAMƏR. Sənə şükürlər olsun, İlahi!..
NURTƏN. Dualarım qəbul oldu... Allahım...
TURQUT. Gözəl bir işi bacardıq...

*Effekt – Musiqi. Avtobus qarajında səslər.*

NURTƏN. Yadımızdan çıxan heç nə olmadı, hə?
TAMƏR. Qapıları bağladım... Problem olsa, evi su basar. Krantları da bağladın? Bir həftənin içində hər şeyimiz məhv olar.
NURTƏN. Bağladım... Qucağında bir az da sən saxla... Uşağa necə dözəcəyik, Tamər?
TAMƏR. Gəlinbacı baxar... Bir də ki, daha Gülər də baxar... Necə olsa, evinə gedir...
NURTƏN. Hamı avtobusa minir... Harda qaldılar?
TAMƏR. Gələrlər, canım...
NURTƏN. Bu Turqut bəy gör, necə yaxşı adamdır... Əl çəkmədi ki, Gülərə hədiyyə alacağam...
TAMƏR. Hə... Gəlirlər...
TURQUT. *(Təng-nəfəs)* Gecikmişəm?
TAMƏR. O əlinizdəkilər... Turqut bəy, bizi utandırırsınız...
TURQUT. Yolunuz uzundur... Yeyərsiniz...
TAMƏR. Gülər, Turqut əminə təşəkkür eləmisən?
GÜLƏR. Təşəkkür edirəm.
NURTƏN. Nə gözəl topdur... Qıpqırmızı...
GÜLƏR. Turqut əmi alıb...
NURTƏN. Bütün elədikləriniz üçün minnətdarıq.
TURQUT. Xahiş edirəm... Gülər, gəl, səni öpüm... Gülə-gülə, qızım... Daha bacı-qardaşına, anana, atana qovuşursan...
GÜLƏR. O qədər darıxmışam ki...

TURQUT. Bəs, itin üçün?
GÜLƏR. Onunçün də... Sonra toyuqlarımız üçün, həyətimiz üçün... Sonra bacı-qardaşımla gizlən-qaç oynamaq üçün...
TURQUT. Gələn həftəyə əminlə gəlinbacın bura qayıdacaqlar... Uşaq sizdə qalacaq... Ona baxacaqsan, elə deyil?
GÜLƏR. Əlbəttə, baxacağam... Həm özüm...
TURQUT. Özün...
GÜLƏR. Hər zaman baxaram... Atamla anam da baxar...
TURQUT. Əlbəttə, qızım... Sən də avtobusa min...
TAMƏR. Gəl, Gülər... Gələn həftə görüşənədək, Turqut bəy.
NURTƏN. Hələlik...
TURQUT. Gülə-gülə...
GÜLƏR. Əmi, bizə də gəl...
TURQUT. Olar, qızım, gələrəm...

*Effekt – Hərəkət edən bir maşın səsi.*

**S O N**

**İstanbul, 1984**

**Tərcümə tarixi:**
***3-4 Aprel 2021***
***Şəki***

**Azərbaycan dilinə tərcümə edən:**
**ELVİN NURİ**